**“Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il aprelin 5-də Düşənbə şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 may 2023-cü il
№ 2137

*(Azərbaycan Respublikası Nazirlər Kabinetindən 17 oktyabr 2023-cü il tarixli 1-5/1-17930/2023 nömrəli dərkənarla daxil olan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin məktubuna əsasən 10 oktyabr 2023-cü il tarixində qüvvəyə minmişdir)*

**Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin**

**məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında**

## SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində ikitərəfli qarşılıqlı fəaliyyətin effektiv formalarını inkişaf etdirmək istəyini ifadə edərək,

nəticələrin ölkələrin sosial və iqtisadi inkişafı üçün tətbiq edilməsinə yardım edəcək yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq üçün hüquqi əsasın yaradılmasını arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Tərəflər bu Saziş əsasında beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsip və normalarına və öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlığa yardım edirlər.

### Maddə 2

Bu Sazişlə nəzərdə tutulan əməkdaşlıq Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə həyata keçiriləcəkdir:

- topoqrafik, geodezik, kartoqrafik, torpaq təşkili və kadastr işlərinin həyata keçirilməsi;
- Tərəflərin dövlətlərinin dövlət sirrini təşkil edən və konfidensial hesab etdikləri digər məlumatlar istisna olmaqla, yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması, coğrafi informasiya sistemləri və aerokosmik planlaşdırma sahəsində qanunvericilik və digər normativ hüquqi aktların, metodoloji, elmi-texniki və istehsalat ədəbiyyatı və məlumatların mübadiləsi;
- birgə proqram və layihələrin işlənib hazırlanması və reallaşdırılması;
- müşavirələr, konfranslar, simpoziumlar, seminarlar və məsləhətləşmələrin keçirilməsi;
- birgə elmi tədqiqat, təcrübə və istehsalat işlərinin aparılması;
- konsultasiya xidmətlərinin göstərilməsi;

- yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri üzrə işlərin yerinə yetirilməsi üçün mütəxəssislərin hazırlanması, yenidən hazırlanması, təcrübə keçməsi, kadrların ixtisasının artırılması;
- Tərəflərin məqsədəuyğun hesab edəcəyi digər əməkdaşlıq istiqamətləri.

**Maddə 3**

Bu Sazişdə nəzərdə tutulan əməkdaşlığın həyata keçirilməsi və inkişafı məqsədilə Tərəflər bu Sazişin həyata keçirilməsinə məsul səlahiyyətli dövlət orqanlarını təyin edirlər:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (yerquruluşu, torpaq münasibətləri, kadastr məsələlərinə məsul) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (geodeziya, kartoqrafiya, Yerin uzaqdan zondlanması, coğrafi informasiya sistemləri məsələlərinə məsul),

Tacikistan tərəfindən - Tacikistan Respublikasının Torpaq İdarəçiliyi və Geodeziya üzrə Dövlət Komitəsi.

Tərəflərin nümayəndələri səlahiyyətləri daxilində bu Sazişə və dövlətlərinin milli qanunvericiliyinə əsasən bir-birilərinə yardım edirlər. Zərurət yarandıqda, Tərəflərin səlahiyyətli nümayəndələri bu Sazişin həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün görüşürlər.

Başqa məsul səlahiyyətli dövlət orqanı təyin edildiyi təqdirdə, Tərəflər diplomatik kanallar vasitəsilə bu barədə bir-birilərini ən qısa müddətdə yazılı şəkildə xəbərdar edirlər.

**Maddə 4**

Tərəflər bu Saziş çərçivəsində tədbirlərin reallaşdırılması zamanı əldə edilən məlumatları digər Tərəfin maraqlarına xələl gətirmək üçün istifadə etmirlər.

Tərəflər dövlətlərinin qanunvericiliyinə uyğun olaraq bu Sazişin icrası zamanı və ya birgə fəaliyyət nəticəsində əldə edilmiş məlumatların, sənədlərin, materialların və avadanlıqların qorunmasını təmin edəcəklər.

Tərəflər bu Saziş çərçivəsində əldə edilmiş və ya yaradılmış istənilən konfidensial məlumatların qorunması üçün öz konfidensial məlumatlarının qorunması üçün görülən tədbirlərlə eyni səviyyədə lazımi tədbirlər görəcəklər.

Tərəflər konfidensial xarakter daşıyan məlumatların, sənədlərin və digər məlumatların üçüncü şəxslərə ötürməyəcəklərini öhdələrinə götürürlər.

**Maddə 5**

Bu Saziş çərçivəsində əməkdaşlıq qarşılıqlı kompensasiya və kommersiya əsasında da daxil olmaqla, Tərəflərin qarşılıqlı razılığı ilə həyata keçirilən yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahəsindəki Tərəflər arasında digər əlaqə formalarını istisna etmir.

**Maddə 6**

Tərəflərin və ya onların dövlət orqanlarının və subyektlərinin imzaladığı mülki-hüquqi müqavilələr əsasında, bu Saziş çərçivəsində işlərin həyata keçirilməsi zamanı maliyyələşdirmə şərtləri, hesablaşmaların aparılması qaydası, öhdəliklərin yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsinə görə məsuliyyət, eləcə də mütəxəssislərin ezamiyyə qaydaları bu müqavilələrlə müəyyən edilir.

Tərəflər dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq fəaliyyətləri yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri ilə əlaqəli olan hər iki dövlətin hüquqi şəxsləri arasında qarşılıqlı əlaqələrin qurulmasına və inkişafına yardım edəcəklər.

Tərəflər bu Saziş əsasında imzalanan mülki-hüquqi müqavilələr çərçivəsində dövlət orqanlarının və subyektlərinin öhdəliklərinə görə məsuliyyət daşımırlar.

**Maddə 7**

Tərəflər arasında başqa razılaşma olmadıqda, bu Saziş çərçivəsində həyata keçirilən birgə fəaliyyət nəticəsində əldə edilmiş nəticələr dərc edilməməli, üçüncü ölkələrin hüquqi və fiziki şəxslərinə ötürülməməli və ya satılmamalıdır.

**Maddə 8**

Bu Sazişin təfsiri və tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcək.

**Maddə 9**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə ayrıca protokollar formasında rəsmiləşdirilən və onun ayrılmaz tərkib hissəsi olan dəyişikliklər və əlavələr edilə bilər. Protokollar bu Sazişin 10-cu maddəsi ilə nəzərdə tutulan qaydada qüvvəyə minir.

**Maddə 10**

Bu Saziş onun qüvvəyə minməsi üçün Tərəflər tərəfindən zəruri olan dövlətdaxili prosedurların tamamlanması barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və onun müddətinin bitməsinədək 6 (altı) aydan gec olmayaraq Tərəflərdən biri bu Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş vermədiyi təqdirdə, avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Saziş əsasında bağlanılmış mülki-hüquqi müqavilələr tam icra olunana qədər qüvvədə qalır.

Tərəflərin digər qərar vermədiyi halda, bu Sazişin tətbiqinə xitam verilməsi, Sazişin tətbiqinə xitam verildiyi tarixdə tamamlanmamış hər hansı bir əməkdaşlığa xələl yetirilmədən həyata keçiriləcəkdir.

Düşənbə şəhərində 2023-cü il 5 aprel tarixində, hər biri Azərbaycan, tacik və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər hüquqi qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətni istifadə edəcəklər.

| **Azərbaycan Respublikası** | **Tacikistan Respublikası** |
|---|---|
| **Hökuməti adından** | **Hökuməti adından** |
| *(imza)* | *(imza)* |